YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə “Azərbaycançılıq ideyasının təbliği” istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# Həm ölkəmizdə, həm də xaricdə yaşayan soydaşlarımızın nümayiş etdirdikləri milli birlik haqq savaşımızın qələbə ilə başa çatmasında əhəmiyyətli rol oynadı

*Bu fikir “Yeni Azərbaycan” qəzetinin “Azərbaycançılıq ideologiyasının diasporumuzun fəaliyyətindəki rolu” mövzusunda keçirdiyi onlayn “dəyirmi masa”da səsləndirilib*



Dövlət müstəqilliyimizin ilk illərində Azərbaycanda ictimai-siyasi, o cümlədən sosial-iqtisadi vəziyyət heç də ürəkaçan deyildi. Bütün sahələrdə xaos və özbaşınalıqların hökm sürməsinin fonunda milli birliyin olmaması isə ölkəni vətəndaş müharibəsi və yenicə əldə etdiyimiz dövlət müstəqilliyinin itirilməsi təhlükəsi ilə baş-başa qoymuşdu. Məhz belə bir ağır zamanda, 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyəti gəlişi ilk növbədə ölkəmizdə milli birliyin formalaşmasında əsas rol oynadı. Ümummilli Liderimiz cəmiyyətin bütövləşməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı amilinə çevrilməsi istiqamətində mühüm işlər gördü. Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətidir.

Bu fikirlər “Yeni Azərbaycan” qəzetinin növbəti onlayn “dəyirmi masa”sında səsləndirilib. Qeyd edək ki, “Azərbaycançılıq ideyasının təbliği” istiqaməti üzrə “Azərbaycançılıq ideologiyasının diasporamızın fəaliyyətindəki rolu” mövzusunda keçirilən onlayn “dəyirmi masa”da Milli Məclisin deputatı Ramin Məmmədov və “Azərbaycan Jurnalistlər Şəbəkəsi” İctimai Birliyinin rəhbəri Ayaz Mirzəyev iştirak ediblər.

“Dəyirmi masa”da qeyd olunub ki, hər zaman dövlətinə sadiq olan Azərbaycan vətəndaşları, o cümlədən xaricdəki soydaşlarımız 44 günlük Vətən müharibəsi zamanı da vahid mövqedən çıxış etdilər. Sentyabrın 27-dən başlayan Vətən müharibəsi dövründə xalqımız, o cümlədən də ölkəmizdə fəaliyyət göstərən siyasi qüvvələr birmənalı şəkildə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşərək torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda apardığımız haqq savaşının qələbə ilə başa çatmasında əhəmiyyətli rol oynadı. Vətənin bütövlüyü uğrunda ortaya qoyulan bu milli həmrəylik isə ən böyük uğurlarımızdandır.

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV DİASPOR QURUCULUĞU İŞİNƏ BÖYÜK ÖNƏM VERİRDİ

“Dəyirmi masa”da çıxış edən Milli Məclisin üzvü Ramin Məmmədov bildirib ki, ötən yüzillikdə Azərbaycan xalqı qlobal həmrəylik istiqamətində böyük yol keçib. Onun sözlərinə görə, istər Şərqin ilk cümhuriyyətini qurduğu dövrdə, istərsə də Sovet ittifaqı zamanında xarici ölkələrdə təhsil almış xalqımızın nümayəndələri yaşadıqları dövlətlərdə belə milli maraqlarımızın qorunması yönümündə gördükləri işlərlə seçiliblər. Ulu Öndər Heydər Əliyevin SSRİ-nin siyasi rəhbərliyində təmsil olunduğu zamanlarda azərbaycanlı gənclərin sovet respublikalarında təhsil alması üçün imkanların yaradıldığını diqqətə çatdıran millət vəkili vurğulayıb ki, həmin dövrdə bu böyük cəsarət tələb edirdi. Bununla belə, Ulu Öndər Heydər Əliyev məhz ölkəmizin gələcəyi üçün milli kadrların hazırlanması istiqamətində böyük işlərə imza atdı: **“1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndərin hakimiyyətə qayıdışının ardından bu fəaliyyət yenidən diqqət mərkəzinə düşdü və bununla yanaşı, diaspor quruculuğu işinə də böyük önəm verildi. Qeyd etdiyim kimi, sovet dönəmində atılan addımların bəhrələrini bu günlərdə bir daha gördük. Ümumiyyətlə, diaspor quruculuğu dedikdə mütləq mənada diasporun formalaşmasında ideoloji əsaslar da nəzərə alınmalıdır. Ümummilli Liderin hakimiyyətə gəlişindən sonra Azərbaycan xalqı istər daxildə, istərsə də ölkə xaricində vahid bir ideoloji konsepsiya ətrafında birləşdirildi”.**

Millət vəkili bildirib ki, Ulu Öndər hələ 1990-cı illərin əvvəllərində ilk xarici səfərləri zamanı həmin ölkələrdə yaşayan diaspor nümayəndələrimizlə görüşlər keçirir, Azərbaycan dövlətinin perspektivləri, qarşıya qoyulan məqsədlər, Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində görülməsi nəzərdə tutulan işlər haqqında müzakirələr aparır, dialoq keçirirdi. Bu isə özlüyündə yeni yaranmış bir dövlətin gələcək fəaliyyətində böyük bir missiyanın güdülməsi demək idi. **“Sonrakı illərdə azərbaycançılıq ideologiyasının daha geniş təbliğ olunması nöqteyi-nəzərdən Ulu Öndər Heydər Əliyev daha bir dahiyanə addım atdı və dünya azərbaycanlılarının ilk qurultayını çağırdı. Məhz həmin qurultay milli diasporumuzun təşkilində, quruculuğunda əsaslı dönüş nöqtəsinə çevrildi. Həmin qurultayda Azərbaycan diasporu ilə bağlı ideoloji nöqteyi-nəzərdən çox maraqlı və strateji əhəmiyyət daşıyan fikirlər səsləndirildi. O fikirlərin nəticəsi kimi, Azərbaycan dövləti irəliyə doğru daha bir addım atdı və dünya azərbaycanlılarının paytaxt Bakıdan koordinasiya edilməsi üçün müvafiq dövlət qurumunu formalaşdırdı. Beləliklə də diasporla iş üzrə dövlət siyasətinin konkret icrası ilə bağlı tapşırıqlar verilir, normativ aktların hazırlanması, onların icrası ilə bağlı əməli işlər həyata keçirilirdi”**, - deyən Ramin Məmmədov əlavə edib ki, xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının qanununun qəbul edilməsi və onların hüquqlarının orada təsbiti bu istiqamətdə daha uğurlu nəticələrə yol açdı.

Millət vəkili deyib ki, xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin möhkəmləndirilməsi istiqamətində xüsusi dövlət qurumunun yaradılması mütləq mənada diaspor təşkilatları üçün bir mayak, flaqman rolunu oynadı. Çünki vaxtilə Azərbaycandan xaricə köçüb getmiş həmin insanların məhz yaşadıqları ölkədə dünyaya gələn övladlarının, gənclərimizin müstəqil və milli-ideoloji konsepsiya çərçivəsində fəaliyyət göstərməsinə ehtiyac yaranmışdı. Bu addım xarici ölkələrdə yaşayan soydaşlarımız tərəfindən yüksək əhval-ruhiyyə ilə qarşılandı.

## XARİCDƏ YAŞAYAN SOYDAŞLARIMIZ QƏTİ VƏ DAVAMLI ŞƏKİLDƏ AZƏRBAYCAN DÖVLƏTİNİN MARAQLARINI QORUYURLAR

Ramin Məmmədov onu da bildirib ki, ötən illər ərzində diasporla bağlı dövlət qurumunun fəaliyyətində həyata keçirilən islahatların və ölkəmizin diaspor siyasətində çoxşaxəli yol seçməsinin müsbət nəticəsi bu ilin iyulunda Tovuz hadisələri zamanı özünü açıq şəkildə büruzə verdi. Onun fikrincə, xaricdə yaşayan soydaşlarımızın dəstək aksiyaları çox aydın şəkildə özünü müsbət tərəfdən göstərdi. **“Artıq xaricdə yaşayan soydaşlarımız qəti və davamlı şəkildə Azərbaycan dövlətinin maraqlarını qoruyurlar. Biz bunu iyul ayında xarici ölkələrdə gördük. Onlar erməni diasporuna çox layiqli şəkildə cavablar verdilər. Bu da onu göstərir ki, dövlətimiz ilk illərdən apardığı diaspor siyasətinin bəhrələrini görməyə başlayıb. Qeyd etdiyim kimi, bu mənada məhz xarici ölkələrdə doğulan, böyüyən gənclərimizin fəallığı bizi daha çox sevindirir. Həmin gənclər fərqli xarici ölkələrin pasportunu daşısalar da, öz azərbaycanlı kimlikləri ilə fəxr edirlər. Dövlətimizin illər ərzində apardığı mütəşəkkil, ardıcıl strateji xəttin uğurlu icrasının nəticəsi olaraq bu gün Azərbaycan diasporu keyfiyyət baxımından bir neçə pilləni geridə qoyaraq daha yüksək mərtəbələrdə möhkəmlənib”**, - deyən Milli Məclisin deputatı vurğulayıb ki, bununla belə, Azərbaycan diasporunun qarşısında həll olunacaq yeni vəzifələr dayanır. Beynəlxalq hüququn normalarını əsas götürərək torpaqlarımızın işğaldan azad edilməsinin nəticələri ilə bağlı diasporumuzun üzvlərinin üzərinə bu gün böyük bir missiya düşür. Belə ki, erməni diasporunun apardığı yalan kampaniyalara qarşı müqavimət göstərərək Azərbaycanın haqq səsini dünyada və yaşadıqları ölkələrdə müxtəlif tribunalardan dünyaya çatdırmaq soydaşlarımızın mühüm vəzifələrindəndir: **“Əminliklə deyə bilərik ki, diaspor məsələsində böyük bir yol qət etmişik və böyük uğurlarımız mövcuddur. Ancaq qeyd edildiyi kimi, qarşımızda böyük vəzifələr dayanır. Xüsusən də ərazilərimizin işğaldan azad edildiyi bir dövrdə hər birimizin üzərinə böyük məsuliyyət düşür. Azərbaycana qarşı olan haqsız reaksiyaların qarşısının alınması günümüzün ən aktual mövzusudur”.**

## DİASPORUMUZ VƏTƏN MÜHARİBƏSİ ZAMANI DA ÖZ FƏALLIĞI İLƏ SEÇİLDİ

“Azərbaycan Jurnalistlər Şəbəkəsi” İctimai Birliyinin sədri Ayaz Mirzəyev də bu ilin iyulunda Tovuz rayonunda baş verən erməni təxribatları zamanı xaricdə yaşayan azərbaycanlıların olduqca yüksək fəallıq nümayiş etdirdiyini, sonrakı dövrdə də sosial şəbəkələrdə aktiv olduqlarını diqqətə çatdırıb. Onun sözlərinə görə, buraya həm də diaspor üzvlərimizin keçirdikləri kütləvi aksiyaları və yaşadıqları ölkələrin rəsmilərinə etdikləri çoxsaylı müraciətləri də əlavə etmək lazımdır: **“Milli diasporumuzun bu fəallığı, ümumiyyətlə formalaşması son 20 il ərzində görülən işlərin məntiqi nəticəsidir. Mən bir faktı qeyd etmək istəyirəm ki, dünyada öz Vətəninə bağlı, yurdu, dövlətini sevən diasporlardan biri məhz Azərbaycan diasporudur. Sentyabrın 27-dən başlayaraq erməni təxribatlarına qarşı həyata keçirilən əks-hücum əməliyyatları dövründə də diasporumuzun fəaliyyəti xüsusi vurğulanmalıdır. Bu mənada ki, artıq ölkəmizə qarşı aparılmasına cəhd göstərilən “qara piar” kampaniyalarının qarşısı həm də diasporumuz tərəfindən alınır. Bir daha qeyd etməliyəm ki, son illərdə atılan uğurlu addımlar xaricdə yaşayan soydaşlarımızın fəaliyyətində aparıcı rola malikdir”.**

## GƏNCLƏRİMİZİN YAŞADIQLARI XARİCİ ÖLKƏNİN VƏTƏNDAŞLARI OLARAQ AZƏRBAYCANLA BAĞLI REALLIQLARI TƏBLİĞ VƏ TƏQDİM ETMƏLƏRİ MÜHÜM ƏHƏMİYYƏTƏ MALİKDİR

Ayaz Mirzəyev onu da əlavə edib ki, xaricdə yaşayan soydaşlarımız ölkəmizlə bağlı həqiqətləri, dövlətimizin inkişafını, Dağlıq Qarabağ məsələsi ilə bağlı 30 ilə yaxın uğradığımız ədalətsizlikləri dünyaya çatdırırlar.

(davamı növbəti sayımızda)

**Pərviz SADAYOĞLU**